Şirxan Aranlı



# Ay Mədət oğlu

"Anlamazların anlayanları üstələməsi məni az qala dilim-dilim doğrayır, ürəyimi xəlbirə, ələyə çevirir."

Ə. Mədətoğlu

Gəl odlanma anlamazın işinə,
İş deyilki, o, xəbis vərdişinə,
Bu dünyanın ağrılı gərdişinə,
Ovulur könlümüz, ay Mədətoğlu!

Ulu Haqqa, sığınmışıq əzəldən,
Yarınmadıq düz əməldən, düz əldən,
Haqq özüdür, hər müşkülü düzəldən,-
Düzəlmir dərdimiz, ay Mədətoğlu!

Anlayanlar anlamazın quludur,
Bu zamanın tərs oyunu, yoludur,
Yan-yörəmiz qanmazlarla doludur,
Yaradır qəlbimiz, ay Mədətoğlu!

Anlamaz dost seçir barınmaq üçün,
Salamıda verir, yarınmaq üçün,
Çatır, niyyətinə sarınmaq üçün,
Susur, haqq səsimiz ay Mədətoğlu!

Anlamazlar anlayana dərs deyir,
Anlayanın düz yoluna tərs deyir,
Hər işinə, hər sözünə nəhs deyir,
Qaradır günümüz, ay Mədətoğlu!

Bu dünyanın əyrisi nə, düzü nə,
Ha getsəndə düz yolunla, düzünə,
Əyri yollar səni çəkir özünə,
Yanırıq dərddə biz, ay Mədətoğlu!

Kim deyirsə, "Pul əl çirki"-yalandı,
Pulsuz kişi, vallah oda qalandı,
Bir loxma ruziyə ömür talandı,
Dərddədir elimiz, ay Mədətoğlu!

Anlamazı anlayandan çoxdursa,
Nadanları qəlbə batan, oxdusa,
Aramızda haqq, ədalət yoxdusa,
Tükənməz cövrümüz, ay Mədətoğlu!

Haqq işini anlamazın əlindən,
Düzə əyri deyənlərin dilindən,
Namərdlərin fitnəsindən, felindən,
Tükənib səbrimiz, ay Mədətoğlu!

Saxta sözlər, saxta üzlər bir təndə,
Boş "Sənöllər" can qoymadı bədəndə.
Bəla həddən aşıb, ölçü bitəndə,-
Əriyir ömrümüz, ay Mədətoğlu!

ədalət.-2016.-10 dekabr.-S.14.